# mr.Kontakt GP®

## Polimer dispersiya əsaslı, mineral dolğulu, brüt beton səthlər, tavanlar və divarlar üçün alçı əsaslı suvaq və sement əsaslı suvaq astarı

Məhsul kodu: 70.25.002




### Məhsul haqqında

**mr.Kontakt GP** sement əsaslı və alçı əsaslı suvaqların düz və çıxıntısız səthlərə tətbiqindən əvvəl istifadə olunan mineral dolğulu polimer dispersiyan əsaslı astardır. Alçı əsaslı suvaqlar sement səthlərlə kimyəvi reaksiyaya girərərkən səthdən tədricən ayrılırlar. mr. Kontakt GP®, bir başa əlaqəni kəsmək və möhkəm bir səth əldə etmək üçün hazırlanmış mükəmməl bir astardır.

### İstifadə sahələri

- Daxili və xarici məkanlarda alçı və sement əsaslı suvaqların bürüt beton səthlərinə tətbiqindən öncə astar olaraq istifadə olunur

### Texniki göstəriciləri

| Materialın tərkibi | Mineral dolğulu sulu polimer dispersiya |
|---|---|
| Rəngi | Yaşıl |
| Məhsulun sıxlığı | 1,6 qr/sm³ |
| Tətbiq qalınlığı | Maks. 0,4 mm |
| Quruma müddəti | 2 saat |
| Suvaq tətbiq müddəti | 24 saat |
| Su ilə qarışma sıxlığı | 1,3 qr/sm³ |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Sadəcə su ilə qarışdırılaraq tətbiq olunur
- Aderansı artırır
- Tətbiq olunacaq suvağın suyunun səth tərəfindən sürətlə əmilməsinin qarşısını alır
- Qısa zamanda quruma çatlarına əngəl olaraq işləmə müddətinin artırır
- Tərkibində üzvi həlledici yoxdur

### İstifadə təlimatı

Səthin hazırlanması;
Beton və suvaq kimi səthlər hər cür qırıntıdan təmizlənmiş olmalıdır. Səth çox tozludursa su ilə yuyulmalı və ya nəm süngər ilə təmizlənməlidir. Bütün xırda qırıntılar qazılaraq səthdən təmizlənməli və təmiz səth əldə olunmalıdır.

### Hazırlanması

mr.Kontakt GP®-nin öz qabının içərisinə təmiz su doldurularaq qarışdırılır. 400-600 dövr/dəqlik bir mikserlə tam homogen oluncaya qədər qarışdırılmalıdır.

### Qarışdırma nisbəti

15 kq mr.Kontakt GP® üçün 5 lt su

### Tətbiqi

mr.Kontakt GP® su ilə qarışdırılıb homogen bir görüntü aldıqdan sonra rulon ilə tətbiq olunur. Səthin vəziyyətinə görə yayma qalınlığı müəyyən olunmalıdır. Yapışmama ehtimalı yüksək olan səthlərdə sərfiyyat artırılmalıdır.

### Sərfiyyat

150-250 qr/m²

### Alətlərin təmizlənməsi

İstifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr. Kontakt GP® bərkidikdən sonra səthən ancaq mexaniki şəkildə təmizlənə bilər.

### Saxlama şərtləri

Açılmamış orijinal qablaşdırmada, sərin və quru yerdə, donmadan qorunaraq saxlanmalıdır.

### Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 15 kq ±2%**